**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**XƏZƏR UNİVERSİTETİ**

**Dillər və ədəbiyyatlar departamenti**

# “DÜNYA ƏDƏBİYYATI – 3”

**(XIX-XX əsrlər)**

**fənninin**

**P R O Q R A M I**
Ali təhsilin bakalavriatura hazırlığı üçün

***Humanitar, təhsil və sosial elmlər fakültəsinin***
***Elmi Şurasının 01.10.2021-ci il 2 №-li qərarı ilə təsdiq edilmişdir***

Bakı-2021

**Tərtib edənlər:** **Qardaşxan Əzizxanlı,**
filologiya üzrə fəlsəfə doktoru

**Ülvi Babasoy,**
filologiya üzrə fəlsəfə doktoru

**Elmi redaktor:** **Dilbər Zeynalova,**
filologiya üzrə fəlsəfə doktoru, dosent

**Rəyçilər:** **Əsgər Rəsulov,**
filologiya elmləri doktoru, professor

**Rüstəm Lazımov,**
filologiya üzrə fəlsəfə doktoru

**“Azərbaycan dili və ədəbiyyatı müəllimliyi”, “Filologiya (Azərbaycan dili və ədəbiyyatı)” ixtisaslarının bakalavriat təhsil səviyyəsi üçün hazırlanmış**

**" Dünya ədəbiyyatı 3”  fənninin**

# İŞÇİ TƏDRİS PROQRAMI

## İzahat vərəqəsi

**Fənnin məqsədi:** Dünya ədəbiyyatı-3 fənnində XIX-XX əsrlərdə dünya ədəbiyyatının keçdiyi yol izlənir və təhlil olunur. XIX-XX əsr dünya ədəbiyyatının ümumi səciyyəsinə nəzər salınır və müxtəlif ədəbi mətnlər mənimsənilir. Romantizm, realizm, ekzistensializm, modernizm və postmodernizm kimi ədəbi cərəyanların mahiyyəti, tarixi inkişaf qanunauyğunluğu və nümayəndələri barədə dolğun məlumat verilir. Konkret ədəbi mətnlər təhlil edilir. Dünya ədəbiyyatında (yunan, latın, italyan, ispan, fransız, ingilis, alman, skandinaviya və rus) tarixinin inkişafı mövzusunda biliklər əldə edilir. Kursun məqsədi həm də Azərbaycan və dünya ədəbiyyatına daha çox təsir etmiş yazıçılara və hadisələrə önəm verilərək dünya ədəbiyyatının ümumi mənzərəsi haqqında geniş təsəvvür yaradılacaqdır. Ədəbi-bədii və kulturoloji proseslərdən qarşılıqlı faydalanma milli ədəbiyyatların sonrakı inkişafında, onların yeni forma və janrlarla zənginləşməsində də mühüm rol oynayır. Bu cür qarşılıqlı əlaqə və ədəbi mübadilələrin həyata keçirilməsində ən vacib faktorlardan biri dünya ədəbiyyatında gedən ədəbi-bədii və kulturoloji proseslərin izlənilməsi, öyrənilməsi, dünya ədəbiyyatı xəzinəsindən ümumi mənəvi sərvət kimi bütün xalqların mənimsəmələri, faydalanmaları ilə bağlıdır. Belə bir prosesin “Dünya ədəbiyyatı” fənninin müasir tələblər, yeni metodoloji konsepsiyalar çərçivəsində daha yüksək səviyyədə tədrisini və tələbələrə mənimsədilməsini zəruri edir.

Kursun tədrisində məqsəd, həm də mövcud ideologiyaların yanlış mahiyyətindən irəli gələn təzyiq və qadağalara məruz qalan ədəbi simaların yaradıcılığına yeni kontekstdən yanaşmadır. Dünya xalqlarının zəngin ədəbi-bədii və kulturoloji irsinin öyrənilməsi və mənimsənilməsi ilə yanaşı, bu ədəbiyyatların tədqiqində bir sıra elmi-nəzəri, estetik-metodoloji prinsiplərin də mühüm rolu diqqət mərkəzində saxlanılacaqdır.

**Gözlənilən təlim nəticələri:** Kursun sonunda tələbə və dinləyicilərin aşağıdakı **bilik və bacarıqları** əldə etməsi gözlənilir:

1. XIX, XX, XXI əsrlər ədəbiyyatını yeni baxışla qiymətləndirmək və təhlil etmək bacarığı formalaşır.
2. Dünya ədəbiyyatının (rus, italyan, ispan, fransız, ingilis, alman, amerikan və b.) inkişafı mövzusunda biliklər əldə edilir.
3. Mədəniyyətlərarası əlaqələr və multikultural dəyərlər analiz edilir.
4. Tələbələrin bədii-estetik zövqləri inkişaf etdirilir.
5. İrəli sürülən fikir və mülahizələri elmi-nəzəri baxımdan əsaslandırılır.

**Mövzuların tədris saatları üzrə bölgüsü**

| № | Mövzuların adları | Cəmi | O cümlədən | |
|---|---|---|---|---|
| | | | Mühazirə | Məşğələ |
| 1. | XIX əsrin 1-ci yarısı. Avropada romantizm.<br>*Alman romantizmi.* Hoffmann və Şamissonun həyat və yaradıcılıqları haqqında ümumi məlumat.<br>H.Haynenin həyat və yaradıcılığı. Lirik şeirləri: "Serafina", "Füsunkar may ayında...", "Şimalda çılpaq qayada", "Bütün ağrı-acımı bir sözdə..." | 4 | 2 | 2 |
| 2. | *İngilis romantizmi.* "Göl məktəbi" şairləri-leykistlər:<br>Sauti, Kolric, Vordsvort<br>C.Q. Bayron. Həyat və yaradıcılığı. "Qabil" pyesi<br>Persi Bişi Şelli və Con Kitsin həyat yaradıcılıqları haqqında ümumi məlumat.<br>Valter Skott tarixi roman janrının banisi kimi:<br>yaradıcılığı haqqında ümumi məlumat.<br>*İngilis realizmi.* Çarlz Dikkens. "Oliver Tvistin macəraları" romanının məzmunu | 4 | 2 | 2 |
| 3. | *Fransız romantizmi.* Viktor Hüqo. Həyat və yaradıcılığı. Şeirləri: ("Uşaqlıq", "Əkinçi", "Barrikada üzərində");<br>"Paris Notrdam kilsəsi" romanının məzmunu<br>O.Balzakın yaradıcılığı. "Qobsek" (novella), "Qorio ata" (roman)<br>Q.Flober və onun "Madam Bovari" romanı (məzmunu) | 4 | 2 | 2 |
| 4. | *Fransız ədəbiyyatı.*A.Düma və onun "Üç muşketyor" romanı (məzmunu). "Qafqaz səfəri" (ixtisarla) Emil Zolya və onun "Dəyirmanın mühasirəsi" povesti (məzmunu)<br>G.Mopassanın yaradıcılığı haqqında ümumi məlumat ("Gombul", "Həyat", "Vərəsəlik", "Madmuazel Fifi" novellalarının məzmunu). "Əziz dost" romanı. "Dilənçi" hekayəsi<br>J.Vern. "Kapitan Qrantın uşaqları" romanının məzmunu | 4 | 2 | 2 |
| 5. | *Amerikan romantizmi.* Edqar Allan Ponun ən məşhur şeirlərindən: | 4 | 2 | 2 |

| | | | | |
|---|---|---|---|---|
| | "Quzğun" və "Lenor"<br>F.Kuper."Dəri Corab" silsiləsi. "Sonuncu mogikan" romanı<br>*Polşa romantizmi.*Adam Mitskeviçin həyat və yaradıcılığı. "Baxçasarayda gecə" şeiri ("Krım sonetləri"ndən) | | | |
| 6. | *Amerika ədəbiyyatı.* Cek Londonun yaradıcılığı və onun<br>"Martin İden" romanının məzmunu<br>"Həyat eşqi" hekayəsi<br>U.Uitmenin "Ot yarpaqları"şeirlər kitabı. O.Uayld.<br>"Xoşbəxt şahzadə" (məzmunu)<br>E.Heminqueyin həyat və yaradıcılığı. "Qoca və dəniz". povesti | 4 | 2 | 2 |
| 7. | *XX əsr Amerika ədəbiyyatı.* U.Folknerin Nobel nitqi və müsahibələri<br>T.Eliot və onun "Barsız torpaq" şeiri.<br>*Fransız ədəbiyyatı.*A.Kamyu "Taun" (romandan fraqment), "Sizif haqqında mif" (esse)<br>J.P.Sartr yaradıcılığı haqqında ümumi məlumat və onun "Lizzi" pyesinin məzmunu | 4 | 2 | 2 |
| 8. | *Amerika ədəbiyyatı.*T.Drayzer və Mark Tvenin yaradıcılığı haqqında ümumi məlumat | 4 | 2 | 2 |
| 9. | *İspan ədəbiyyatı.* Federiko Q.Lorkanın həyat və yaradıcılığı haqqında məlumat. | 4 | 2 | 2 |
| 10. | *Fransız ədəbiyyatı.* Pol Elüarın lirikası. "Qüssə",<br>"Azadlıq", "Gözəllik" (şeirlər)<br>A.Morua, "Tanatos mehmanxanası" (məzmunu), "Fəslin çiçəkləri" hekayələri<br>*Alman-Avstriya ədəbiyyatı.* F.Kafka "Çevrilmə" (məzmunu)<br>*Norveç ədəbiyyatı.* Knut Hamsunun yaradıcılığı haqqında ümumi məlumat. | 4 | 2 | 2 |
| 11. | *İngilis ədəbiyyatı.* Con Qolsuorsi. "Ölümdən güclü" romanı (məzmunu)<br>S.Moyemin yaradıcılığı.<br>"Ay və qara şahı" romanı (məzmunu).<br>"Luiza" hekayəsi<br>*Alman ədəbiyyatı.* Herman Hessenin "Yalquzaq" romanı (məzmunu) | 4 | 2 | 2 |

| | | | | |
|---|---|---|---|---|
| | ***seminar*** | | | |
| 12. | *İrland ədəbiyyatı.* Ceyms Coysun yaradıcılığı (“Uliss”, “Dublinlilər”) haqqında ümumi məlumat. “Bədbəxt hadisə” hekayəsi<br>*İtaliya ədəbiyyatı.*U.Eko posmodernist yazıçı kimi.<br>*Portuqal ədəbiyyatı.* J.Saramaqo və onun “İsanın incili” romanı | 4 | 2 | 2 |
| 13. | *XIX əsr rus ədəbiyyatı. A.S.Puşkinin yaradıcılığı və “Mən Sizi sevirdim”şeiri. M.Y.Lermontovun yaradıcılığı (məlumat) və “Qafqaz”, “Yelkən” şeirləri*<br>*L.Tolstoyun həyat və yaradıcılığı. “Anna Karenina” romanı və “İvan İliçin ölümü” hekayəsi nin məzmunu* | 4 | 2 | 2 |
| 14. | *XIX əsr rus ədəbiyyatı F. Dostoyevskinin həyat və yaradıcılığı. "Cinayət və cəza" və “Karamazov qardaşları” romanları.*<br>N.Qoqol. “Şinel” hekayəsi S.Yeseninin lirikası. “İran nəğmələri” silsiləsi. (“Xorasanda elə qapılar var ki”)<br>İ.S.Turgenevin yaradıcılıq yolu.Turgenevin ideya-bədii təkamülü. «Atalar və oğullar» | 4 | 2 | 2 |
| 15. | *Rus ədəbiyyatı.* Dekadentçi-modernist cərəyanlar (N.Qumilyov, O.Mandelştam və b).<br>A.P. Çexovun hekayə yaradıcılığı: “6№-li palata”, “İt gəzdirən xanım” hekayələri<br>V.Nabokovun, A.Soljenitsının (və b.) yaradıcılığı haqqında ümumi məlumat.<br>M.Şoloxov, “İnsanın taleyi” hekayəsi | 4 | 2 | 2 |

## Mövzu 1

## XIX əsr xarici ölkələr ədəbiyyatı. Romantizmin təşəkkülü. Almaniyada romantizm

XIX əsrin 1-ci yarısında Avropada romantizm. Öz başlanğıcını 1795-ci ildən götürən, ilk dəfə 296 vilayətə bölünmüş Almaniyada təşəkkül tapan romantizm ədəbi cərəyanı. XVIII əsrin sonu - XIX əsrin əvvəllərində romantizmin yaranmasının səbələri və tarixi-ictimai qaynaqları. Müxtəlif sosial təbəqələrin narazılığının romantik ədəbiyyatda inikası.

30-40-cı illərdə Almaniyada ictimai hərəkat və 1848-ci il inqilabının hazırlanması prosesi. Tendensiyalı ədəbiyyatın inkişafı. Höte irsi ətrafında mübarizə.

Romantiklərin müxtəlif siyasi mövqedə dayanmasının səbəbləri. Sənətin gerçəklik, sənətkarın cəmiyyət üzvlərində üstünlüyü F.Şlegelin estetikasının aparıcı istiqaməti kimi. Şlegelin estetik görüşlərində azadlıq problemi, onun romantik istehza təlimi. Novalisin estetikasında sənət problemi. Novalisin yaradıcılığında ideal şəxsiyyətin təcəssümü. Q.Büxner, Herderlin, Vakenroder, Kleyst, L.Tik, Berne, Brentano, Bühner, Heydelberq, Herveq, Eyhendorfun yaradıcılıqları (icmal).

*E.T.A.Hofman.* Hofman romantizminin fəal xarakteri. Yazıçının əsərlərində zadəgan mühitinin və meşşanlığın tənqidi; Hofmanın əsərlərində sənətkar obrazı. Hofman qəhrəmanlarının mühitlə barışmazlığı. Qəhrəmanın mühitlə əlaqəsini kəsməsinin müxtəlif formaları (monastıra getmək, fantastik qüvvələrlə əlaqə bağlamaq cəhətləri). «Kiçik Saxes», «Qızıl gün» əsərlərində sənətkarın öz qüvvəsinin qeyri-qənaətbəxş olmasının dərki.

*Şamisso.* "Peter Şlemilin qəribə hekayəti" əsərində pul hərisliyinə, onun dağıdıcı qüvvəsinə kəskin tənqidi münasibət.

*H.Haynenin həyat və yaradıcılığı.* H.Hayne yaradıcılığının erkən dövrünün romantik xüsusiyyətləri. «Gənclik əzabları» şeirlər silsiləsi. «Lirik intermesso» fəlsəfi düşüncələrin bədii inikası kimi : "Serafina", "Füsunkar may ayında...", "Şimalda çılpaq qayada", "Bütün ağrı-acımı bir sözdə..." və b.

«Almaniya» poemasında üsuli-idarənin tənqidi. Yol süjeti epizodik obrazları birləşdirən poetik vasitə kimi.

## Mövzu 2
## İngiltərədə romantizm

Romantiklərin maarifçiliyə ziddiyyətli münasibəti: Bayron və Şelli tərəfindən maarifçilik ideyalarının davamı və inkişaf etdirilməsi; «Göl məktəbi» və Şatobrian tərəifndən bu ideyaların rədd olunması. "Göl məktəbi" şairləri-leykistlər: Sauti, Kolric, Vordsvort.

Romantizmin bədii nailiyyətləri: lirik janrların inkişafı, tarixi roman janrının yaradılması, insanın daxili ziddiyyətlərinin açılması. «Bayronvari poema» və onun digər ədəbiyyatlarda dəyişikliyə uğraması. Fantastikanın romantizmdə rolu.

Fransız inqilabının ingilis romantiklərinə («Göl məktəbi» nümayəndələrinə, Bayron və Şelliyə) təsiri. Müxtəlif meylli ingilis romantiklərinin əsərlərində geçəkliyin inikası. Romantizm cərəyanında müxtəlif siyasi və esteik proqramların mübarizəsi.

*Persi Bişi Şelli və Con Kits*. Həyat yaradıcılıqları haqqında ümumi məlumat.

**C.Q.Bayron.** Bayron yaradıcılığı dünya ədəbiyyatında romantik dünyaduyumunun parlaq təcəssümlərindən biri kimi. Şairin əsərlərində üsyankarlıq, faciəvilik və fərdiyyətçilik. Bayron və karbonarilər hərəkatı.

«Çayld Haroldun səyahəti» romantik poeması. Poemanın kompozisiyası və janr xüsusiyyətləri. Çayld Harold Bayronun dünyagörüş və mövqeyinin daşıyıcısı kimi. Əsərdə məyusluq və tənhalıq pafosunun xüsusiyyətləri. Avropa gerçəkliyinin təcəssümü. Romantik poeziyanın və estetikanın inkişafında poemanın rolu. «Çayld Haroldun səyahəti» və H.Cavidin «Azər» poemasının müştərək və fərqli cəhətləri.

Bayronun Şərq poemaları («Kaur», 1813; «Abidos gəlini», 1813; «Korsar», 1814; «Lara», 1814; «Korinfin mühasirəsi», 1816; «Parizina», 1816). Poemalarda daxili monoloq qəhrəmanın özünüdərkinin və özünütəhlilinin poetik forması kimi. Şərq poemalarının qəhrəmanlarının daxili aləminin təhlili dünya ədəbiyyatında insan psixologiyasının təhlilində yeni mərhələ kimi. Şərq poemalarının qəhrəmanlarının sevgili ilə ünsüyyətə girməklə tənhalığı dəf etmək cəhdləri. Poemalarda Şərq aləmi ekzotik ünsür kimi.

“Manfred”. Manfred surəti və “Qabil” pyesindəki Qabil orazı arasında oxşar cəhətlər.

“Qabil” pyesində Qabil zülmə qarşı yer üzündə birinci dəfə e’tiraz edən ilk üsyankar kimi.

“Don Juan” mənzum romanında Don Juanın inkişafda olan xarakteri və əsərdə “yuxarı təbəqə”nin tüfeyliliyinin, saxtakarlığının, xalqa düşmən mövqeyinin ifşası.

Bayronun estetik görüşləri.

*Valter Skott*- tarixi roman janrının banisi kimi. Yazıçının tarixi və sosial görüşləri. Fransa burjua inqilabının yazıçının dünyagörüşünün formalaşmasında rolu. Şotlandiya folklorunun və ingilis xronikalarmın V.Skottun yaradıcılıq metodunun təşəkkülünə təsiri. V.Skott tarixi balladaların və poemaların müəllifi kimi.

V.Skott tarixi roman janrının yaradıcısı kimi. Yazıçının əsərlərində insan və cəmiyyət problemi. Zəmanənin xarakterini müəyyənləşdirən sosial ziddiyyətlər tarixi süjetin əsası kimi. Yazıçının əsərlərində reallıqlar, milli və yerli kolorit. Tarixi süjetin dinamikası: fərdi talelərin təsvirindən siniflərin və təbəqələrin həyatının inikasına doğru.

*İngiltərədə tənqidi realizm.* Çartistlər hərəkatı və ingilis realizminin inkişafı. Çartizmin Dikkensin və Tekkereyin yaradıcılığına təsiri. Tekkereyin “Snoblar kitabı” və “Şöhrətpərəstlik yarmarkası” əsərlərində tənqid hədəfləri.

*İngilis realizmi.* Ç.Dikkens realizmində cəmiyyətin təhlili. Dikkens qəhrəmanları mənəvi idealların daşıyıcısı kimi. Dikkensin satirik təsvirlərinin mahiyyəti və istiqamətləri. Yumor onun yaradıcılıq axtarışlarının aparıcı xüsusiyyətlərindən biri kimi. Hüquqsuz insanların faciəsi Dikkeinsin «Oliver Tvistin macəraları» və «Ağır zamanlar» romanlarının əsas mövzusu kimi.

**Mövzu 3**

**Fransada romantizm**

1789-1794-cü illər Böyük Fransız inqilabı, Napoleonun hakimiyyəti və Burbonların bərpası. Keçid dövrünün romantiklərin proqramında və bədii praktikasında əksi. J.Sandın «İndiana» romanında qadın hüququnun müdafiəsi məsələsi.

*V.Hüqo* Fransada romantik hərəkatının aparıcı siması kimi. Yazıçının monraxizmdən respublikaçılığa təkamülünün ideya və estetik xüsusiyyətləri. V.Hüqonun yaradıcılığında inqilab və xalq mövzusu.

«Səfillər» romanı: əsərdə xalqın faciəsinin inikası. Jan Valjan, Fantina, Kozetta və Qavroş obrazları xalqın tipik nümayəndələri kimi. Əsərdə xristian şəfqəti mövzusu.

Şeirləri: (”Uşaqlıq”, “Əkinçi”, “Barrikada üzərində”); “Paris Notrdam kilsəsi” romanının məzmunu.

*O.Balzak.* Sosial inkişafın qanunauyğunluqlarının bədii dərkində Balzakın rolu. «Bəşəri komediya» roman və povestlər silsiləsində cəmiyyətin bütün təbəqələrinin fərdi həyatı. Silsilənin ideyasının formalaşmasında yazıçının erkən yaradıcılığı, xüsusilə «Şuanlar» romanının rolu.

«Qobsek» və «Şaqren dərisi» əsərləri, «Bəşəri komediyanın bədii əsası kimi. Varlıların xalq kütlələri üzərində hakimiyyətinin bədii təcəssümü. Qosbek və onun öz dövrünə münasibəti. “Qorio ata” romanı.

*Q.Flober.* “Madam Bovari” romanında Ema Bovari, Rudolf, Leon, əczaçı Ome, Şarl obrazlarının dövrün və cəmiyyətin mahiyyətini açıb göstərməkdə rolu.

**Mövzu 4**

**Fransada tənqidi realizm**

*P.J.Beranjenin* lirikasında satirik şeirlərin aparıcı rolu.

*P.Merimenin* novellalarında cəmiyyətdəki narazılığın inikası.

*F.Stendalın* «Qırmızı və qara» romanında maarifçi ideallların süqutu, aşağı təbəqənin nümayəndəsinin faciəsi.

*A.Düma* və onun ”Üç muşketyor” romanı. Şər qüvvələrlə mübarizə rəmzinə çevrilən D’Artanyanın Don Kixotla müqayisəsi.

“Qafqaz səfəri” (ixtisarla).

*Emil Zolya* XIX əsrin ikinci yarısında realizmin ən görkəmli nümayəndələrindən biri, naturalizm ədəbi cərəyanının rəhbəri və nəzəriyyəçisi kimi. 20 romandan ibarət “Ruqonlar və makkarlar” romanlar

silsiləsi (ümumi məlumat). “Dəyirmanın mühasirəsi” povesti (məzmunu)

*G.Mopassan.* “Gombul”, “Həyat”, “Vərəsəlik”, “Madmuazel Fifi” novellalarında saxta mühitin tənqidi. “Əziz dost” romanı (məzmunu). “Dilənçi” hekayəsi.

*J.Vern.* Elmi-fantastik ədəbi janrının görkəmli nümayəndəsi kimi. “Kapitan Qrantın uşaqları” romanında Ayrton və Paqanel obrazları.

**Mövzu 5**

**Amerikan romantizmi**

*Edqar Allan Ponun* ən məşhur şeirlərindən: “Quzğun” və “Lenor”.

*C.F.Kuper.* «Dəri corab» haqqında romanlar silsiləsi (Pentalogiya). «Pionerlər», «Sonuncu mogikan», «Preriya», «Ləpirçi», «Vəhşi heyvan ovçusu». Natti Bumponun burjua cəmiyyətini tərk etməsi və hinduların əxlaqi-mənəvi dəyərlərini qəbul etməsi romanların süjet xəttinin vəhdətini təmin edən poetik amildir. Burjua həyat və dünyagörüş tərzinin təsiri altında hinduların təbii həyat şəraitinin və ahənginin pozulmasının bədii ifadəsi. Ov, balıq mənzərələrinin dünyanın romantik təsvirində rolu. “Sonuncu mogikan” romanında Çinqaçquk, Unkas, Maqua obrazları.

*Polşa romantizmi.*Adam Mitskeviçin həyat və yaradıcılığı. “Krım sonetləri” silsiləsi. “Baxçasarayda gecə” şeiri.

**Mövzu 6**

**XIX əsr realizmi. ABŞ ədəbiyyatı**

XIX əsr tənqidi realizmin yaranmasının və formalaşmasının səbələri, ictimai ziddiyyətlərin aşkarlanması və kəskinləşməsi, maarifçi realizmin nailiyyətləri.

Realizmin formalaşmasında romantizmin rolu. Realizmdə şəxsiyyətin təhlilinin keyfiyyəti, yeni üsul və vasitələri. Sosial mühitin funksiyasının yeni bədii zəmin üzərində işlənməsi: cəmiyyət və şəxsiyyət. Ümumi fərdi keyfiyyətlərin üzə çıxarılması tipikləşdirmənin əsas prinsipi kimi. Tənqidi realistlərin əsərlərində müsbət qəhrəman.

Tənqidi realizm anlayışı və realizmin digər tipləri (intibah realizmi, maarifçi realizmi, klassist realizm) ilə ümumi və fərqli cəhətləri. XIX əsr realizminin xüsusiyyətləri.

*Q.Biçer-Stounun* Amerikada quldarlığın ləğvinə qarşı yönəlmiş publisistikasının üslubi priyomlarının «Tom dayının daxmaşı» əsərində inikası. Xeyir ideyası romanın ideya məzmununu və süjet xəttini müəyyən edən aparıcı motiv kimi. Əsərdə şər qüvvələrinə qarşı müqavimət göstərməmək ideyası.

“Həyat eşqi” hekayəsini yazıb intihar edən *Cek Londonun* yaradıcılığı. "Martin İden" romanınında

Martin və Ruf obrazları.

*U.Uitmen*. Şairin yaradıcılıq yolunun təkamülü. Sosial mübarizənin kəskinləşməsinə şairin münasibəti. «Ot yarpaqları» şeirlər məcmuəsində inqilab mövzusu və onun romantik həlli. Şairin yaradıcılığının humanist məzmunu.

*O.Uayld.* Yazıçının əsas yaradıcılıq qayəsi və ideyası: dünyanın əsl sirri onun görünən tərəfindədir. Gözəllik- Oskar Uayld əsərlərinin ana xətti kimi. "Xoşbəxt şahzadə" nağılı.

*E.Heminqueyin* həyat və yaradıcılığı. "Əlvida, silah" romanında müharibə haqqında həqiqətlərin təsviri. Romanın E.M.Remarkın "Qərb cəbhəsində təbəddülat yoxdur" əsıəri ilə ortaq cəhəti.

"Qoca və dəniz" povestində insan cəsarətinin, yalqızlığın və insan iztirablarının təsviri.

## Mövzu 7

## XX əsr Amerika ədəbiyyatı. Fransa ədəbiyyatı

*Amerika ədəbiyyatı. "Poeziyada parlaq novatorluq istedadına görə"* Nobel mükafatçısı T.Eliot və onun "Barsız torpaq" poeması.

U.Folknerin yaradıcılığı haqqında ümumi məlumat. Yazıçının Nobel nitqi.

T.Drayzerin yaradıcılığında qadın obrazları Amerika həyatının güzgüsü rolunda ("Kerri bacı", "Cenni Herhardt" və s. romanları əsasında)

Mark Tven görkəmli Amerika yazıçısı, jurnalisti, satiriki və ictimai xadimi kimi.

*Fransız ədəbiyyatı.*A.Kamyu "Taun" (romandan fraqment). "Yad" povestinin qəhrəmanında müəllifə xas olan psixoloji keyfiyyətlər. "Sizif haqqında mif" (esse)

J.P.Sartrın yaradıcılığı haqqında ümumi məlumat. J.P.Sartr yazıçı və filosof kimi. J.P.Sartrın Nobel mükafatından imtinasının səbəbləri haqqında məktubu. "Sözlər". "Lizzi" pyesi.

## Mövzu 8

## XX əsr Fransız ədəbiyyatı. XX əsr Alman-Avstriya və Norveç ədəbiyyatı

*Fransız ədəbiyyatı.* Pol Elüarın lirikası. "Qüssə", "Azadlıq", "Gözəllik" (şeirlər).

A.Moruanın novella yaradıcılığı: "Tanatos mehmanxanası", "Fəslin çiçəkləri" hekayələri.

*Alman-Avstriya ədəbiyyatı.* F.Kafka yaradıcılığında insanın özgələşməsi, faciəvi tənhalıq obrazı: "Çevrilmə" hekayəsi.

*Norveç ədəbiyyatı.* Knut Hamsunun həyat dramının ilkin mərhələsi "Aclıq" romanında. "Torpağın bərəkəti" romanında monumentallıq.

**Mövzu 9**

**XX əsr ispan, ingilis, alman ədəbiyyatı**

*İspan ədəbiyyatı.* Şair, dramaturq, musiqiçi, rəssam-qrafik Federiko Q.Lorkanın lirikası.

*İngilis ədəbiyyatı.* Con Qolsuorsi. “Ölümdən güclü” romanında ölümdən güclü sevgi.

S.Moyemin yaradıcılığı. Oxucu ilə sadə və anlaşıqlı dildə S.Moyem anlaşması: “Ay və qara şahı” romanı. “Luiza” hekayəsi.

*Alman ədəbiyyatı.* Herman Hessenin yaradıcılığında insan konsepsiyası: yurdsuz-yuvasız insanla cəmiyyət arasındakı gərginlik (“Knulp”, “Yalquzaq”, “Muncuq oyunu” əsərləri üzərində).

**Mövzu 10**

**XX əsr irland, italiyan, portuqal ədəbiyyatı**

*İrland ədəbiyyatı.* Ceyms Coysun “Uliss” romanı XX əsrin cəsarətli ədəbi hadisəsi kimi. . C.Coysun “Bədbəxt hadisə” hekayəsi.

*İtaliya ədəbiyyatı.*U.Eko və onun “Qızılgülün adı” fəlsəfi- detektiv posmodernist romanı.

*Portuqal ədəbiyyatı.* J.Saramaqo “İsanın incili” romanı “tanrı əleyhinə çıxan, Əhdi-Cədidin əsas personajlarının xarakterlərini təhrif edən kitab” kimi.

**Mövzu 11**

**Latın Amerikası ədəbiyyatı.**

Q.Q.Markes, həyat və yaradıcılığı. “Patriarxın payızı” romanı (məzmunu). “Yüz ilin tənhalığı” romanı.

X.L.Borxesin yaradıcılığı haqqında ümumi məlumat və onun “Bizim zavallı individuallığımız” essesi

**Mövzu 12**

**XX əsr alman və fransız ədəbiyyatı.**

T.Mannın yaradıcılığı haqqında ümumi məlumat. H.Böllün “O illərin çörəyi” və E.M.Remarkın “Zəfər tağı” əsərlərinin qısa məzmunu

**Mövzu 13**

**XIX əsr rus ədəbiyyatı.**

A.S.Puşkinin yaradıcılığı və “Mən Sizi sevirdim”şeiri. A.S.Puşkinin həyatı, litsey dövrü

yaradıcılığı, ilk şeirləri. «Azadlıq” odası». Sürgün illəri. «Yevqeni Onegin» mənzum romanı rus ədəbiyyatında realizmin inkişafında yeni mərhələ kimi. Əsərin ictimai problematikası. Onegin obrazı. Obrazın təkamülü. Tatyana obrazı milli xarakterin təcəssümü kimi. Romanın janr özünəməxsusluğu.

Böyük Pyotrun zəncisi», «Mərhum İ.P.Belkinin hekayələri» povestlərinin problematikası. «Dubrovski», «Kapitan qızı» əsərlərində kəndlilərin etirazı, xalq və xalq üsyanı. Dubrovski və Puqaçov obrazları. Əsərdə çarın və xalqın faciəsi məsələsi. «Boris Qodunov» faciəsinin novator xarakteri. Puşkin və Azərbaycan.

M.Y.Lermontovun yaradıcılığı (məlumat) və “Qafqaz”, “Yelkən” şeirləri M.Y.Lermontovun poemaları və nəsr əsərləri. M.Y.Lermontovun poemalarının əsas problemləri. «Mtsıri» və «Demon» poemalarının ideya məzmunu.

«Maskarad»ın problematikası və persionajları. «Çar İvan Vasilyeviç haqqında mahnı» əsərində xalq qəhrəmanı obrazı. «Zəmanəmizin qəhrəmanı» əsəri. Əsərin ideya-məzmunu, obrazlar sistemi. Peçorin obrazı. Peçorin və Onegin. Qruşnitski və Maksim Maksimiç obrazları. Əsərdə Qafqaz həyatının təsviri. Lermontov və Azərbaycan.

L.N.Tolostoyun həyat və yaradıcılığı. “Anna Karenina” romanı və “İvan İliçin ölümü” hekayəsi nin məzmunu. «Hərb və sülh» - qəhrəmanlıq, vətənpərvərlik roman epopeyası kimi. Kutuzov obrazı. Saray həyatının və bürokratik mühitin tənqidi. Andrey Balkonski və Pyer Bezuxov obrazlarında Tolostoyun sosial-fəlsəfi obrazlarının təcəssümü.Əsərin kompozisiyası.Əsərdə psixoloji təhlil sənətkarlığı.

«Anna Karenina» müasir həyat haqqında roman kimi. Romanda məhəbbət, nigah problemi. Karenin, Oblonski, Vronski obrazlarında yüksək zadəganlığın və bürokratiyanın tənqidi. Anna Kareninamn faciəsi, onun cəmiyyətlə konfiliktinin mənası.

Tolstoyun rus və dünya ədəbiyyatına təsiri. L.N.Tolostoy və Azərbaycan.

## Mövzu 14

## XIX əsr rus ədəbiyyatı

F. Dostoyevskinin həyat və yaradıcılığı. “Cinayət və cəza” və "Karamazov qardaşları" romanları. Dostoyevskinin yaradıcılığı - azadlıq hərəkatının ikinci mərhələsində rus burjua-dvoryan cəmiyyətini içəridən dağıdan dərin ziddiyyətlərin tənqidi kimi.

50-60-cı illərdə yaradılmış roman və povestlər. «Cinayət və cəza» romanının süjeti, dramatizmi və dinamızmi. Roskolnikov obrazı, onun «qəribə yuxusunun» ictimai-simvolik mənası. Svidriqaylov, Lyutin, Lebedyatnikov obrazları.

Dostoyevski Azərbaycan dilində.

N. V.Qoqolun həyat və yaradıcılıq yolu "Şinel" hekayəsi

Qoqolun əsərlərində Rusiyadakı mütləqiyyət quruluşunun tənqidi. «Müfəttiş» əsərində Xlestakov obrazı və onun süjetdə əhəmiyyəti. Surətlərin satirik və mübaliğəli təsviri.«Ölü canlarn əsərində xalq mövzusu. Süjetin inkişafında Çiçikovun rolu, satirik obrazların yaranmasi-Əsərdə mülkədarlar obrazı: Sobakeviç, Manilov, Nozdryov və b.Qoqol yaradıcılığının novator xarakteri. Qoqol və Azərbaycan ədəbiyyatı.

S.A.Yesenin yaradıcılığı .S.Yeseninin lirikası. "İran nəğmələri" silsiləsi. ("Xorasanda elə qapılar var ki")

XX əsrin 10-cü illərində «Kəndli» poeziyasında S.A.Yesenin yaradıcılığının özünəməxsusluğu. Şairin yaradıcılığında Vətən mövzusu, azadlıq və asılılıq motivləri. S.A.Yesenin və rus xalq yaradıcılığı ənənələri. Yesenin və klassik rus. poeziyası. S.Yesenin poetikasının xüsusiyyətləri. Blok poeziyasının təsiri. Şairin yaradıcılığının orijinallığı.

S.Yesenin yaradıcılığının Mərdəkan dövrü. Yesenin və Azərbaycan. Bakı haqqında şeirləri.

İ.S.Turgenevin yaradıcılıq yolu**.**Turgenevin ideya-bədii təkamülü. «Atalar və oğullar» romanında Bazarov obrazı. Obrazın ziddiyyətli xüsusiyyətləri. Kirsanovlar, Odinsova, Kukşini obrazları. Romanın kompozisiyası, dili, üslubu. 40-cı illərin ideya mübarizəsində Turgenevin rolu. Turgenev - realist roman və novella ustası kimi. Povest və romanlarının kompozisiyası. Turgenev yaradıcılığının ictimai əhəmiyyəti.Turgenev və Azərbaycan ədəbiyyatı.

**Mövzu 15**

**Rus ədəbiyyatında dekadentçilik - modernist cərəyanlar**

XIX əsrin sonu, XX əsrin əvvəllərində rus ədəbiyyatında yeni dekadent və modernist cərəyanların əmələ gəlməsi. Simvolizm, akmeizm və futurizm-dekadentçiliyin ən geniş yayılan cərəyanları kimi. Simvolizmin süqutu. Dekadent ədəbiyyatında yeni axınlar, naturalizm, imajinizm, akmeizm və onların nümayəndəlri. «Şairlər sexi» dərnəyi (N.Qumilyov, A.Axmatova, İ.Qorodetski, O.Mandelştam və b.).

Akemizmin meydana gəlməsi. Akmesitlərin poeziyasında məhəbbət mövzusu. 1910-1912-ci illərdə rus ədəbiyyatında futurizmin meydana gəlməsi. Futurizmdə iki qütb. Modernist cərəyanların süqutu.

*Rus ədəbiyyatı.* Dekadentçi-modernist cərəyanlar (N.Qumilyov,

O.Mandelştam və bV.Nabokovun, A.Soljenitsının (və b.) yaradıcılığı haqqında ümumi məlumat.

M.Bulqakov və onun "Ustad və Marqarita" romanı (məzmunu)

M.Şoloxov, "İnsanın taleyi" hekayəsi

A.P.Çexovun həyat və yaradıcılığı. A.P. Çexovun hekayə yaradıcılığı: "6№-li palata", "İt gəzdirən xanım" hekayələri**.** Çexovun hekayələrində tüfeyli mülkədar və dvoryanlar obrazı. «Özgə fəlakəti»,

«Tanışların yanında» yumoristik və satirik novellaların yaradılması. «Buqələmun», «Kiçik zabit Prişibeyev», «Maska», «Şaxti», «Sərxoşlar» hekayələrində milyonçu obrazları. «İvanov», «Qağayı», «Vanya dayı», «Üç bacı», «Albalı bağı» dramları. Dramlarda əsas surətlərin təhlili. Realist-psixoloji teatrın inkişafında Çexov dramaturgiyasının rolu. A.P.Çexovun dramları rus və dünya dramaturgiyasında yeni mərhələ kimi. Çexov və Azərbaycan ədəbiyyatı.

M.A.Şoloxovun həyatı və yaradıcılıq yolu. «İmtahan» felyetonu M.A.Şoloxovun ilk qələm təcrübəsi kimi. M.A.Şoloxov hekayə ustası kimi. «Don hekayələri»ndə vətəndaş müharibəsi və Don kazaklarının həyatının təsviri. «Sakit Don» romanında kazakların inqlaba münasibətləri. Romanda Qriqorii Melexov və Aksinya surətləri. «Oyanmış torpaq» romanında sovet dönəmində kəndlilərin zorla kolxoza daxil edilməsinin təsviri. Şoloxov yaradıcılığında müharibə mövzusu. «İnsanın taleyi» hekayəsində Andrey Sokolov surəti. «Onlar Vətən uğrunda vuruşmuşlar» romanında xalq hərəkatı və xalq mövzusu.Şoloxov və Azərbaycan.

XX əsr rus poeziyasının iknişafında A.A. Blokun rolu. Onun poeziyasında səmimilik və humanizm hissləri. Şairin dünyagörüşü və yaradıcılıq inkişafının mərhələləri. A.A.Blokun ilk şeirləri. Blokun estetik görüşləri. Şairin yaradıcılığında inqilab mövzusu. Blok və simvolizm. «Gözəl qadın haqqında şeirlər» kitabında simvolsitlərin təsiri. 1904-1905-ci illər inqilabı hadisələrini əks etdirən şeirləri. Blokun dramaturgiyası. «Qızılgül və xaç» əsəri. Blokun yaradıcılığında yeni bir ədəbi hadisə kimi. Blokun poemaları. «Bülbüllü bağ» poemasında xalqla yaxınlaşmaq, cəmiyyətdə yeni yol tapmaq ideyası. «Onikilər», «Skiflər» poemaları. Blokun lirikası. İtaliya şeirləri silsiləsi. Blok yaradıcılığı Azərbaycan dilində.

## Ədəbiyyat siyahısı

**Dərsliklər:**

1) M.Y.Yelizarova, S.P.Qajdeu, B.İ.Kolesnikov, N.P.Mixalskaya "XIX əsr xarici ədəbiyyat tarixi" (tərcümə: İsmayıl Şıxlı), Azərbaycan Dövlət Tədris-Pedaqoji Ədəbiyyatı nəşriyyatı, Bakı-1964, 654 səh.(səh.7-528-ci səh.)

2) Ə.Xəlilov, "Dünya ədəbiyyatı" III cild, Ali məktəblər üçün dərslik, (XIX əsr Dünya ədəbiyyatı), Bakı, "Bilik", 2014, 552 səh.

3) Ə.Xəlilov, "Dünya ədəbiyyatı" IV cild, Ali məktəblər üçün dərslik, (XX əsr Qərb ədəbiyyatı), Bakı,"Araz" nəşriyyatı,2012, 566 səh.(98-241; 286-319; 386-424; 464-535-səh.)

4) Ə.Xəlilov, "Dünya ədəbiyyatı" V cild, Ali məktəblər üçün dərslik, (XX əsr Qərb ədəbiy.), Bakı,"Araz" nəşriyyatı,2012, 616 səh.(76-93;192-203;273-283;304-312;364-374 səh.)

5) Ə.Xəlilov, "Dünya ədəbiyyatı" VI cild, Ali məktəblər üçün dərslik, (XX əsr Qərb ədəbiy.), Bakı,"Bilik",

nəşriyyatı,2013, 528 səh.(41-47;87-108;144-153;179-199;215-252;443-464; 498-519 səh.)
6) Ə.Xəlilov, “Dünya ədəbiyyatı” VII cild, Ali məktəblər üçün dərslik, (XX əsr Qərb ədəbiy.), Bakı,“Bilik”, nəşriyyatı, 2013, 472 səh.(58-85;106-112;135-141;305-309; 313-326;336-351-ci səhifələr).
7) V.Nabokov, “Rus ədəbiyyatından mühazirələr” (tərc: Qismət),”Elm və təhsil”, 2017.

Xarici ədəbiyyat:

İngilis dilində

1. Amy Berke, Robert R. Bleil, Jordan Cofer, Doug Davis, A Concise Introduction to American Literature. 766 pages.

Türk dilində

1. Vladimir N. Edebiyat dersleri.. Çevirenler: Fatih Özgüven, Ayşe Batur. İstanbul: İletişim Yayınları. – 2020, – 514 s.
2. Fehmi Yahya Tuna. Dünya edebiyatı tarihi. İstanbul: Kesit Yayınları. 2019, 422 s.
3. Pamuk, O. Öteki Renkler / O. Pamuk. – İstanbul: Yapı Kredi Yayınları, – 2013, 470 s.
4. Parla, J. Don Kişot'tan Bugüne Roman. – İstanbul: Timaş Yayınları, – 2015, – 389 s.
5. Bahtin, M. Karnavaldan romana / M. Bahtin. Çeviren: Cem Soydemir. – İstanbul: Ayrıntı Yayınları, – 2014, – 368 s.
6. Royot, D. Amerikan edebiyatı. Çeviren: Rıfta Madenci. İstanbul: İletişim Yayınları, – 2007, – 132 s.
7. Antmen Ahu. 20. Yüzyıl Batı Sanatında Akımlar. İstanbul: Sel Yayıncılık, – 2014, – 333 s.
8. Marquez Q. Anlatmak için yaşamak. Çeviren: Pınar Savaş. İstanbul: Can Yayınları, – 2019, – 575 s.

**Bədii ədəbiyyat:**

1. 150 cildlik “Dünya ədəbiyyatı seriyası”ndan müvafiq cildlər
2. A. Puşkinin seçilmiş əsərləri. 3 cilddə, Bakı, 1989
3. M.Arif. Dahi rus şairi A.S.Puşkin. 1949
4. M.Bağırov. XIX əsr rus ədəbiyyatı. ADU-nun nəşri, 1965
5. M.C.Cəfərov. XIX əsr rus ədəbiyyatı. 3 hissəli. I-III hissə, «Maarif», 1970- 1975.
6. Ə.Qəhrəmanov. «Rus-Azərbaycan ədəbi əlaqələrinə dair». Bakı, 1962, s. 43-49
7. Ş.Qurbanov. Puşkin və Azərbaycan poeziyası. Uşaqgəncnəşr, 1956
8. M.Y.Lermontov. Seçilmiş əsərləri, 4 cilddə, 1964-1967
9. Ə.Ağayev. Lermontov və Azərbaycan. 1942

10. M.Bağırov. «M.Y.LeFmontov», Azərnəşr, 1961
11. M.C.Cəfərov. XIX əsr-rus ədəbiyyatı. 3 hissəli, I hissə, «Maarif», 1970
12. Ş.Qurbanov «Lermontov və Azərbaycan ədəbiyyatı», Yazıçı, 1976
13. Ə.Qəhrəmanov. «Rus-Azərbaycan ədəbi əlaqələrinə dair». Bakı, 1962, s. 59-64
14. S.Şükürov. Lermontov və Qafqaz. Qırılmaz əlaqələr. 1972
15. Петров С.М. История русской литературы XIX века, I половина, М., 1985, с. 304-347
16. N.V. Qoqol. Əsərləri, 6 clddə, Azərnəşr, 1952-1956
17. M. Bağırov. XIX əsr rus ədəbiyyatı. ADU-nun nəşri, 1965
18. M.C.Cəfərov. XIX əsr rus ədəbiyyatı. 3 hissəli, I hissə, «Maarif», 1970, s. 348-393
19. M.Rəfili. Nikolay Vasilyeviç Qoqol. 1952
20. Ə.Qəhrəmanov. «Rus-Azərbaycan ədəbi əlaqələrinə dair» s.50-54
21. İ.S.Turgenev. «Atalar və oğullar», Uşaqgəncnəşr, 1951
22. M.C.Cəfərov. XIX əsr rus ədəbiyyatı, 3 hissəli, II hissə, «Maarif», 1973
23. Петров С.М. История русской литературы XIX века, I половина, М., 1985. с. 156-228
24. İ.A.Qonçarov. «Oblomov», Bakı, Gənclik, 1980
25. M.Arif. «Qonçarov», Seçilmiş əsərləri, III cild, Bakı, 1970
26. M.Bağırov. XIX əsr rus ədəbiyyatı. ADU-nun nəşri, 1965
27. N.A.Dorolyubov. «Oblomovçuluq nədir?». Seçilmiş əsərləri.
28. F.M.Dostoyevski «Karamazov qardaşlarıw, «Cinayət və cəza», Azərnəşr,1970
29. M.C.Cəfərov. XIX əsr rus ədəbiyyatı. 3 hissəli, III hissə, «Maarif», 1975
30. L.Qrossman. «Dostoyevski», Gənclik, 1972
31. V.Ermilov. F.M.Dostoevski, M. 1956
32. L.N.Tolostoy. «Hərb və sülh» I-IV cildlər, 1948-1953, «Anna Karenina» I-II cildlər. Uşaqgəncnəşr, 1950
33. A.Alməmmədov. «Lev Tolostoy və Azərbaycan ədəbiyyatı» APİ-nin nəşri, 1972
34. Ə.Bağırov. «L.Tolostoy və Azərbaycan». Bakı, 1974
35. Ə. Qəhrəmanov. «Rus-Azərbaycan ədəbi əlaqələrinə dair», Bakı, 1962
36. M.C.Cəfərov. XIX əsr rus ədəbiyyatı. 3 hissəli, III hissə, «Maarif», 1975
37. Асадуллаев С.Г. «Лев ТОЛСТОЙ и Азербайджанская советская литература», Баку, 1976
38. A.P.Çexov. Seçilmiş əsərləri, 2 cilddə.
39. История русской литературы XIX в. II половина. Под ред. Петрова С.М Учпедгиз, 1978